AZƏRBAYCAN RESPUBLİKASI

# «AZƏRBAYCAN ALİMLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ROLU»

## ELMİ–PRAKTİKİ KONFRANS

# İNFORMASİYA VƏRƏQƏSİ

**Təklifin adı:** DƏYİRMİ ÇANAQLI YASTICALARA QARŞI BİOLOJİ MÜBARİZƏDƏ YIRTICI BÖCƏK RİZOBİUSUN TƏTBİQİ

**Təklifin mahiyyəti:** Dəyirmi çanaqlı yastıcalar kənd təsərrüfatı bitkilərinə böyük zərər vurur. Sorucu zərərvericilərdən olan bu yastıcalar bitkilərin şirəsini sorur, məhsulun kəmiyyət və keyfiyyətini aşağı salır, güclü yoluxmada bitkilərin tamamilə qurumasına səbəb olur. Bu çanaqlı yastıcaların təbii düşməni olan *Rhizobius lophanthae Blaisd.* onların məhv edilməsində böyük rol oynayır. Bu böcək Avstraliya mənşəlidir, Azərbaycana Gürcüstandan esesis yolu ilə gəlmişdir. Laboratoriyada yaxşı çoxalır və dəyirmi çanaqlı yastıcaların- oleandr, bənövşəyi, tut, kaliforniya, qəhvəyi çanaqlı yastıcaların məhvində böyük rol oynayır.

**Təklifin səmərəliliyi:** Son illərdə respublikanın Lənkəran zonasında tut çanaqlı yastıcası çox geniş yayılmışdır. Bitkilərin artıq 20-25%-i bu yastıca ilə yoluxmuşdur. *Rhizobius lophanthae* bu yastıcanın məhvində çox böyük rol oynaya bilər. Laboratoriyada çoxaldılaraq təbiətə buraxılan bu entomofaqlar tut çanaqlı yastıcanın məhvinə gətirib çıxara bilər (I ildə bu yastıcaların təxminən 30-40%-i, II ildə isə təxminən 60-70%-i məhv edilə bilər).
*Rhizobius lophanthae* bənövşəyi çanaqlı yastıcanın, kaliforniya çanaqlı yastıcanın və digər dəyirmi yastıcaların da effektiv entomofaqıdır. Onların say tənzimində də böyük rol oynayır. Ona görə də onun bu zərərvericilərə qarşı bioloji mübarizədə istifadəsi məqsədəuyğundur.

**Kontakt üçün məlumatlar:** E-mail: mustafazadeh@mail.ru
Telefonlar: 455-64-97 ev
439-59-73 iş
464-42-67 (mobil)